# ELM SAHƏSİ ÜZRƏ 2011-Cİ İLDƏ
# GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

2011-ci ildə elm sahəsində təşkil edilən və həyata keçirilən tədbirlər aşağıdakılardır:

1. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirminci ildönümü haqqında” 21 yanvar 2011-ci il tarixli, 1293 nömrəli sərəncamına əsasən Təhsil Nazirliyi AMEA ilə birgə

- “**Müstəqil Azərbaycanın 20 il ərzində keçdiyi tarixi yol**” mövzusunda elmi-praktik konfrans;
- “**Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin tarixi varisidi**r” mövzusunnda beynəlxalq elmi konfrans;
- Təhsil Nazirliyi AMEA və Dövlət Statistika Komitəsi ilə birgə **“Müstəqil Azərbaycanın inkişafı rəqəmlərdə”** mövzusunda elmi-praktik konfrans;
- Təhsil Nazirliyi Azərbaycan Dövlət Rəssamlıq Akademiyası ilə birgə “**Heydər Əliyev və müstəqil Azərbaycan dövlətinin inkişafı**” mövzusunda elmi-praktik konfrans (24 may).
- Təhsil Nazirliyi Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ilə birgə **“Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir”** mövzusunda elmi-praktik konfrans keçirmişdir.

2. “**A.Q.Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında**” Azərbaycan Respublikası Prezidentinin 4 aprel 2011-ci il tarixli, 1415 nömrəli Sərəncamının icrasını təmin etmək və birgə fəaliyyəti əlaqələndirmək məqsədi ilə Təhsil Nazirliyi Sənaye və Energetika Nazirliyi, Dövlət Neft Şirkəti ilə birgə tədbirlər planı hazırlamış (11.05.2011-ci il tarixli, 797 nömrəli) və “Muğam” Mərkəzində konfrans keçirmişdir;

3. 27 may tarixində Azərbaycan Dövlət İqtisad Universitetinin bazasında 12 fənn (riyaziyyat, fizika, kimya, biologiya, informatika, Azərbaycan dili, Azərbaycan tarixi, Azərbaycan coğrafiyası, ingilis dili, alman dili, fransız dili və rus dili) üzrə Təhsil Nazirliyi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin birgə qərarına əsasən **Tələbələrin XVI Respublika fənn olimpiadası** keçirilmişdir. Olimpiada qaliblərinə Təhsil Nazirliyinin və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin pul mükafatları hədiyyələri, diplomlar və medallar təqdim edilmişdir.

4. 26-29 oktyabr tarixində Təhsil Nazirliyi Azərbaycan Dillər Universiteti ilə birgə **“Tur Heyerdal və Azərbaycan”** mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.

5. Azərbaycan Respublikası Prezidentinin «**Abbas Zamanovun 100 illik yubileyi**nin keçirilməsi haqqında» 05 oktyabr 2011-ci il tarixli, 1761 nömrəli sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədbirlər planı hazırlanmış (21.11.2011-ci il tarixli, 1837 nömrəli), Təhsil Nazirliyi AMEA və Naxçıvan Ali Məclisi ilə birgə Abbas Zamanovun 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilmişdir.

6. Azərbaycan Respublikası Prezidentinin «**Mirzə İbrahimovun 100 illik yubileyi**nin keçirilməsi haqqında» 19 iyul 2011-ci il tarixli, 1761 nömrəli sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədbirlər planı hazırlanmış (21.11.2011-ci il tarixli, 1839 nömrəli) və AMEA, Yazıçılar Birliyi, Mədəniyyət və Turizm Nazirliyi ilə birgə Mirzə İbrahimovun 100 illik yubileyinə həsr olunmuş 2 konfrans keçirilmişdir (Milli Elmlər Akademiyasında və Azərbaycan Dillər Universitetində).

7. 29-30 noyabr tarixlərində Təhsil Nazirliyinin təşkilatçılığı ilə Bakı Slavyan Universitetində **tələbələrin XXII Respublika elmi konfransı və konfrans çərçivəsində “Müstəqilliyimiz əbədidir, daimidir, dönməzdir” adlı müsabiqə** keçirilmişdir. Müsabiqənin qaliblərinə pul mükafatları, Təhsil Nazirliyinin diplomları və Bakı Slavyan Universitetinin hədiyyələri təqdim edilmişdir. Konfransın proqramı nəşr olunmuş, materiallar təhlil edilərək nəşrə hazırlanır (konfransın materialları Təhsil Nazirliyi tərəfindən hər il nəşr olunaraq konfrans iştirakçılarına təmənnasız təqdim edilir).

8. 21-22 dekabr tarixlərində Təhsil Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Müəllimlər İnstitutunda **Doktorantların və gənc tədqiqatçıların XVI Respublika elmi konfransı** keçirilmişdir. Konfransın proqramı nəşr olunmuş, materiallar nəşrə hazırlanır (konfransın materialları Təhsil Nazirliyi tərəfindən hər il nəşr olunaraq konfrans iştirakçılarına təmənnasız təqdim edilir).

9. Azərbaycan Respublikası Prezidentinin «**S.A.Orucovun 100 illik yubileyinin keçirilməsi haqqında**» 20 sentyabr 2011-ci il tarixli, 1743 nömrəli sərəncamının icrası ilə əlaqədar Azərbaycan Respublikası Təhsil Nazirliyinin Tədbirlər planı hazırlanmış (14.12.2011-ci il tarixli, 2046 nömrəli), yerlərə çatdırılmış və KİV-lərdə S.A.Orucovun həyat və fəaliyyəti ilə bağlı materiallar nəşr olunmuşdur.

10. Azərbaycan Respublikası Nazirlər Kabineti ilə razılaşdırılmış siyahıya əsasən hesabat ilində ali təhsil müəssisələri tərəfindən 118 elmi və elmi-praktik konfrans, o cümlədən 87 respublika və 31 beynəlxalq səviyyəli konfrans keçirilmişdir.

**2011-ci il ərzibndə Nazirliyin Elm şöbəsində görülmüş işlər:**

1. Ali təhsil müəssisələri tərəfindən 2011-ci il və sonrakı illərdə yerinə yetiriləcək elmi-tədqiqat işlərinin planları müəyyənləşdirilmiş və Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasına tədqim edilmişdir.

2. “Azərbaycan məktəbi” jurnalının Ali Attestasiya Komissiyası tərəfindən təsdiq edilmiş “Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən nəşrlər siyahısı”na daxil edilməsi barədə vəsatət qaldırılmışdır (17.02.2011-ci il tarixli, 48-16-1210/16 nömrəli).

3. Azərbaycan Texniki Universitetində “Mexanika-maşınqayırma” beynəlxalq elmi jurnalının fəaliyyəti dayandırılmış və onun bazasında “Maşınşünaslıq” beynəlxalq elmi jurnalı təsis edilmişdir (25.11.2011-ci il tarixli, 1861 №-li əmr).

4. Azərbaycan Dövlət Pedaqoji Universitetində “Bioinformatika” elmi-tədqiqat laboratoriyası yaradılmışdır (12.04.2011-ci il tarixli, 559 №-li əmr).

5. Bakı Dövlət Universitetində fəaliyyət göstərən “Kompyuter tarixi tədqiqatlarda” elmi-tədqiqat laboratoriyasının bazasında mövcud ştatlar çərçivəsində “Erməni araşdırmaları” elmi-tədqiqat laboratoriyası yaradılmışdır (17.10.2011-ci il tarixli, 1671 №-li əmr).

6. 2011-ci ilin 10-11 oktyabr tarixlərində keçirilən Bakı Beynəlxalq Humanitar Forumuna hazırlıq işləri həyata keçirilmişdir (Forumda iştirak edəcək gənc tədqiqatçıların siyahıları hazırlanmış və çıxışlarının tezisləri toplanıb Təşkilat komitəsinə təqdim edilmişdir).

7. Ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri üçün ABŞ-da hər il keçirilən İntel İSEF Beynəlxalq sərgiyə Azərbaycanın qoşulması məqsədi ilə milli seçim mərhələsinin keçirilməçi qərara alınmış və “Sabahın alimləri” adlı respublika müsabiqəsinə start verilmişdir (Təhsil nazirinin 12 oktyabr 2011-ci il tarixli, 1649 nömrəli əmri). Müsabiqənin təşkilatçıları olan Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi və “Mədəd” təşkilatı tərəfindən birgə qərar qəbul edilmişdir ( 8 dekabr 2011-ci il tarixli, 2021/2621/R-02-16 nömrıli qərar). Həmin müsabiqənin keçirilməsi ilə əlaqədar Qaydalar hazırlanmış, Təşkilat komitəsi və Elmi Ekspertiza Komitəsinin tərkibi təsdiq edilmiş, maliyyə mənbələri müəyyənləşdirilmiş, sabahinalimleri.edu.az ünvanlı sayt yaradılmışdır. Bakı və Sumqayıt şəhərlərində yerləşən ümumtəhsil məktəblərinə müvafiq məlumatlar çatdırılmışdır.

8. Ali təhsil müəssisələrində yeni doktoranturaların yaradılması barədə təkliflər hazırlanıb Nazirlər Kabinetinə təqdim edilmişdir. Həmin təkliflər nəzərə alınaraq 19 dövlət və 6 qeyrı-dövlət ali təhsil müəssisəsində və Təhsil Problemləri İnstitutunda doktoranturalar yaradılmışdır. 2011-ci il üzrə doktoranturalara qəbul planları təsdiq edilmiş və oktyabr-noyabr aylarında qəbul keçirilmişdir.

9. Ali təhsil müəssisələrində çalışan alimlər tərəfindən alınmış mühüm elmi nəticələr araşdırılımış və 180 elmi nəticə barəsində məlumat respublika üzrə hesabata daxil edilmək məqsədi ilə Azərbaycan Milli Elmlər Akademiyasına təqdim edilmişdir (15.12.2011-ci il tarixli, 48-16-107501 nömrəli).

10. 2012-ci ildə beynəlxalq və respublika səviyyəli elmi konfrans, simpozium və konqreslərin keçirilməsi barədə ali təhsil müəssisələrinin təklifləri toplanmış, araşdırılmış və Nazirlər Kabineti ilə razılaşdırmaq məqsədi ilə müvafiq təkliflər hazırlanmışdır.

11. Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının bölmələri tərəfindən son 3 ildə görülmüş işlər barədə məlumatlar toplanmış, təhlil edilmiş və müvafiq arayış hazırlanmışdır. Elmi-Metodik Rəyasət Heyəti və bölmələrinin tərkibi dəqiqləşdirilmiş və təsdiq üçün hazırlanmışdır.

12. Yeni normativ hüquqi sənədlərin hazırlanması istiqamətində iş aparılmış və aşağıdakılar təsdiq edilmişdir:

- Tələbələrin XVI Respublika fənn olimpiadası haqqında Əsasnamə;
- Tələbələrin XXII Respublika elmi konfransının və müsabiqənin keçirilmə Qaydaları;
- Doktorantların və gənc tədqiqatçıların Respublika elmi konfransı haqqında Əsasnamə ;
- “Sabahın alimləri” Respublika müsabiqəsinin keçirilmə Qaydaları.

Aşağıdakı normativ sənədlərin layihələri hazırlanmışdır:

- Tələbələrin elmi fəaliyyəti haqqında Əsasnamə;
- Tələbə Elmi Cəmiyyəti haqqında Nümunəvi Əsasnamə;
- Ümumtəhsil kitabxanası haqqında Nümunəvi Əsasnamə;
- “İlin gənc alimi” müsabiqəsinin keçirilmə Qaydaları.